**Azərbaycan Respublikasının 2000-2002-ci illərin yanacaq-enerji balansının təsdiq edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Əhalinin və iqtisadiyyatın enerjidaşıyıcıları ilə təminatının yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 iyun tarixli, 356 nömrəli Fərmanının 1-ci bəndinin 1-ci abzasının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərenerji" və "Azəriqaz" səhmdar cəmiyyətləri ilə birlikdə hazırlanmış "Azərbaycan Respublikasının 2000-2002-ci illərin yanacaq-enerji balansı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərenerji" və "Azəriqaz" səhmdar cəmiyyətləri "Azərbaycan Respublikasının 2000-2002-ci illərin yanacaq-enerji balansı"nda nəzərdə tutulan neft və qazın hasilatı, elektrik və istilik enerjisinin istehsalı, təbii qazın idxalı və elektrik stansiyalarının yanacaq ilə təchizatı göstəricilərinin yerinə yetirilməsini təmin etsinlər.

3. Bu qərarın istisna nəzarət Azərbaycan Respublikası Baş nazirinin müavini Y.Eyyubova həvalə edilsin.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 4 sentyabr 2000-ci il**

**№ 161**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 sentyabr, № 9.- S. 4114.**